Xalq qəzeti .- 2022.- 26 may.

**Ələddin Allahverdiyev – 75**

# Qəlbində Vətən sevgisini yaşadan elm fədaisi

***Xalqımız bu gün öz tarixinin ən məsul dövrlərindən birini yaşayır. Yer üzündə yeni bir nizamlanma gedir. Uzun müddət bəşəriyyətin xilası kimi görünən dəyərlərin bir çoxu öz əvvəlki mahiyyətini itirməkdə, yeni dəyərlər sistemi formalaşmaqdadır. Belə bir zamanda hər bir xalqın gələcək taleyi indiki dövrdə atdığı addımlardan, öz potensialını nə səviyyədə üzə çıxarmasından, dünyanın qabaqcıl, mühüm təcrübələrindən, nailiyyətlərindən nə dərəcədə istifadə etmək bacarığından çox asılıdır.***

Artıq tarixi təcrübə, məntiq onu təsdiq edir ki, o xalqlar öz gələcəkləri üçün daha etibarlı fundament yaradırlar ki, onlar elmin, elmi kadrların imkanlarından daha səmərəli istifadə edir, öz mədəniyyətlərinin, mənəvi sərvətlərinin potensialının hərəkətə gətirilməsində elmin köməyindən daha çox bəhrələnirlər. Bunu intensiv inkişafda olan bir çox ölkələrin təcrübəsindən aydın görmək olar. Elə bir təbii sərvətləri olmayan Sinqapur indi öz sürətli inkişafı, hərtərəfli tərəqqisi ilə hər kəsdə heyrət doğurur. Ölkəmizin möhkəm özüllər yaratmaq, sürətli inkişaf edərək gələcəkdə dünyanın ən qabaqcıl ölkələri sırasında yer tutmaq üçün olduqca böyük imkanları var. Vətənimiz bir vaxtlar yer üzünün inkişafına yön vermiş Bəhmənyar, Nizami, Sührəverdi, Tusi kimi onlarca alimlər yetirmişdir. Elə tək ötən əsrdə Y. Məmmədəliyev, H. Abdullayev, L. Zadə, Ə. Cavan, K. Kərimov, A. Çayxorski, A. Mirzəcanzadə, R. Əliyev kimi dünya şöhrətli alimlərimiz böyük elmi nailiyyətlər qazanmışlar. Bu estafet davam etməkdədir. İndi həm ölkəmizdə, həm də xaricdə fəaliyyət göstərən alimlərimiz müasir elmin inkişafında olduqca əhəmiyyətli rol oynamaqdadırlar. Ölkəmizin elm aləmində nüfuzunu qaldıran alimlərimizdən biri də bu günlərdə 75 illik yubileyini qeyd etdiyimiz, dünya okeanı və kosmik fəzanın tədqiqatlarında, dəniz seysmik kəşfiyyatı, elektron, müdafiə və tibb sənayesində istifadə olunan cihazların və aparatların yaradılmasında dalğa və rəqs proseslərinin öyrənilməsi üçün riyazi modellərin və metodların yaradılması sahəsində yüksək elmi nailiyyətlər qazanmış hörmətli professorumuz Ələddin Allahverdiyevdir.

Ələddin müəllimi mən hələ 1966-cı ildən, tələbəlik illərindən tanıyıram. O zaman mən Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə birinci kursda oxuyurdum, Ələddin müəllimsə üçüncü kursda. Elə dərsə başladığımız sentyabr ayından, necə deyərlər, bir "od-alov olan" bu oğlanın tələbələrin, fakültənin, universitetimizin diqqət mərkəzində olduğuna hamımız şahid olduq. Bu bəstəboy, gur qara saçlı oğlan, demək olar ki, fakültəmizin hər tərəfindən görünürdü. Əlaçı və fəal idi. Elə bu fəallığa görə onu fakültə komsomol komitəsinin katibi seçmişdilər. Yaşlı nəsil bilir ki, o zaman komsomol komitəsinin katibi olmaq nə demək idi. Əvvəla, bu vəzifəyə ancaq qabiliyyətli, zəkalı, nümunəvi davranışa malik olan gəncləri seçirdilər. Onların həm də təhsil müəssisələrində xüsusi, mühüm səlahiyyətləri vardı. Tədris prosesinin daha keyfiyyətli getməsi üçün ciddi fəaliyyət göstərirdilər. Onların tələbələri həm səfərbər etmək, həvəsləndirmək sahəsində, həm də hüquqlarını qorumaqda əvəzsiz xidmətləri olurdu. Ələddin müəllim o zaman öz fəaliyyəti ilə müsbət mənada universitetdəki bütün komsomol təşkilat katiblərindən seçilirdi. Biz bunu ümumuniversitet tədbirlərində duyur və onunla fəxr edirdik.

Elə həmin dərs ilinin axırında onu bir əlaçı tələbə kimi təhsilini davam etdirmək üçün Moskva Dövlət Universitetinə göndərdilər. Bu, o zaman hər bir tələbə üçün olduqca böyük uğur, fantastik dərəcədə bir xoşbəxtlik sayılırdı. Həmin tələbələr öz ölkələrinin fəxri hesab edilirdi. Ələddin müəllim ona göstərilən bu etimadı çox layiqli şəkildə doğrultdu. Moskva Dövlət Universitetində də əlaçı oldu. Ona görə də təhsili başa vuranda onu həmin universitetin əyani aspiranturasında oxumaq üçün saxladılar. Bu da fövqəladə hadisə idi. Hər əlaçı tələbəni də MDU-da saxlayıb aspiranturada oxumağı məsləhət görmürdülər. Onun bu uğuru o dövrdə xalqımızın mühüm uğurlarından biri idi. Tezliklə aspiranturanı da vaxtında bitirib nəzəri və tətbiqi mexanika sahəsində SSRİ – nin ən gənc və istedadlı alimlərindən biri oldu.

SSRİ – nin olduqca nüfuzlu, mühüm bir elm mərkəzi olan Elektron Sənayesi Nazirliyinin Ümumittifaq Elmi-Tədqiqat "FONON" İnstitutunda əmək fəaliyyətinə başlayan Ələddin müəllim ciddi bir alim kimi tanındı. İnstitutda "Riyazi modelləşdirmə"



şöbəsinin müdiri vəzifəsinə yüksəldi. Bu da xalqımızın bir mühüm uğuru idi. Mən də o zamanlar Moskvada əyani aspiranturada oxuyurdum. Elmi – tədqiqat institutlarında müxtəlif vəzifələrdə, o cümlədən şöbə müdiri xeyli erməni olsa da azərbaycanlının belə bir mövqedə olması nadir hadisələrdən idi. Ötən əsrin axırlarından başlayaraq, o, artıq elm aləmində həssas mexanizmlərin yaradılması sahəsində istedadlı bir alim, perspektivli professor kimi tanınırdı. Ələddin müəllim bir sıra beynəlxalq, ümumittifaq elmi konfrans, simpozium və qurultaylarda 60-dan çox, o cümlədən 12 sifarişli, plenar məruzələrlə çıxış etmişdir. Onun elmi rəhbərliyi altında azərbaycanlılar da olmaqla xeyli alim komandası yetişmişdir.

Ələddin müəllimin ixtiraları, elmi əsərləri, ideyaları elektron (xüsusilə mikro və akustoelektronikada), müdafiə və tibb sənayesi müəssisələrində, dünya okeanının və kosmik fəzanın tədqiqatında (sualtı qayıqlarda və tədqiqat gəmilərində, süni peyklərdə və kosmik gəmilərdə) geniş miqyasda istifadə olunmaqdadır. Professor Ələddin Allahverdiyevin adları çəkilən sahələrdə əldə etdiyi bir neçə mühüm elmi nəticələrini xüsusi qeyd etmək lazımdır. O, əvvəlcədən müəyyən olunmuş, xüsusi tələb olunan ayrı-ayrı fiziki xarakteristikalara, minimum kütləyə və ya həcmə malik olan, pyezoelektrik ötürücülərin optimal formasını müəyyən etmək kimi texniki nöqteyi-nəzərdən çox mühüm olan məsələni nəzəri cəhətdən həll edən ilk alimdir. Bu tipli məsələlərin uğurlu həllinə, o, riyaziyyatda məşhur olan Pontryaginin maksimum prinsipini ilk dəfə tətbiq etməklə nail olmuşdur. Bu məsələlərin həlli kosmik obyektlərdən müvafiq elmi sahələrin mütəxəssislərini maraqlandıran vacib elmi-texniki məlumatların uçuşları idarəetmə mərkəzinə verilməsi üçün pyezoelektrik ötürücülərin yaradılmasında xüsusi rol oynamışdır. Onun elektroelastiqiyyət nəzəriyyəsinin iki və üçölçülü dinamika məsələlərinin həllinə ümumiləşmiş variasiya prinsipi əsasında sərhəd və sonlu elementlər metodlarının ilk dəfə uğurla tətbiq etməsi pyezoelektrik elementlərin rabitəli rəqslərinin çoxsaylı məsələlərinin həllinə uğur gətirmişdir. Disk formalı pyezokeramik membranlarda "kənar effekti"nin mövcudluğunu da nəzəri cəhətdən ilk dəfə professor Ələddin Allahverdiyev aşkar etmişdir. O, SSRİ – nin müdafiə sənayesi sahəsində çox mühüm əhəmiyyət daşıyan, yuxarıda adını çəkdiyimiz "FONON" İnstitutunda uzun illər boyu riyazi nəzəriyyə sahəsində aparıcı rol oynamışdır. Müasir texnikanın müxtəlif sahələrində xüsusi əhəmiyyət daşıyan bir sıra texniki problemlərin həlli məhz onun riyazi təfəkkürünün, məsələlərinin və bilavasitə işirakının hesabına mümkün olmuşdur.

Ciddi elmi fəaliyyəti hesabına Ələddin müəllim daim diqqət mərkəzində olmuşdur və bu, ona müxtəlif sahələrdə mühüm vəzifələr tutmağa, yeni elmi uğurlar qazanmağa imkan yaratmışdır. 1994-95-ci illərdə Rusiya ilə ABŞ-ın birgə yaratdığı "Green Star İnternational" şirkətində baş direktorun elm və istehsalat işləri üzrə müavini, 1995-1996-cı illərdə Moskvanın Zelenoqrad şəhər Orta və Kiçik Biznes Müəssisələri Assosiasiyasının direktoru vəzifəsində işləyərkən ciddi uğurlara nail oldu. Ələddin müəllim 1996-cı ildən etibarən Moskva Dövlət Biznesi İdarəetmə Akademiyasında (MDBİA) ali və tətbiqi riyaziyyat kafedrasının müdiri və professoru vəzifələrində çalışmış, 1997-1999-cu illərdə həm də iqtisadiyyat və menecment fakültəsinin dekanı olmuşdur. 2000-ci ildən isə həmin akademiyanın birinci, tədris-metodika işləri üzrə prorektoru vəzifəsində çalışmışdır. Bu illər ərzində o, iqtisadiyyatda tətbiqi riyaziyyat (riyaziyyatın iqtisadiyyatda və menecmentdə tətbiqinə aid) sahələrinə həsr olunmuş xeyli monoqrafiya, dərslik və dərs vəsaitləri hazırlayıb nəşr etdirmişdir. O, məxfi elmi-texniki işləri də daxil olmaqla 450-dən çox əsərin müəllifidir.

Bu illər ərzində o, eyni zamanda, Rusiya Federasiyası Ali Məktəblərinin Təhsil üzrə Prorektorları Şurasının, Moskva şəhəri Təhsil Departamentinin Koordinasiya Şurasının, MDBİA-nın Elmi Şurasının üzvü, həmin akademiyanın Tədris-Metodika Şurasının sədri vəzifələrini də yerinə yetirmişdir. İndiki vaxtda "MİET" Milli Tədqiqat Universitetində professor, tədris işləri üzrə prorektor müavini, tədris prosesinin keyfiyyəti sahəsinin rəhbəridir.

Ələddin müəllimin elmi-pedaqoji fəaliyyəti dəfələrlə beynəlxalq səviyyədə yüksək nüfuza malik mükafatlara layiq görülüb. Məmnuniyyətlə o mükafatların bir neçəsini burada qeyd etmək istərdim: "Moskvanın 850 illiyi" dövlət medalı, Ümumrusiya Sərgi Mərkəzinin qızıl medalı, "M.V. Lomonosov adına MDU-nun 250 illiyi" yubiley medalı, 1975, 1977 və 1980-ci illərdə Sov.İKP MK-nın, SSRİ Nazirlər Sovetinin, Həmkarlar İttifaqı və ÜİLKGİ MK-nın təsis etdiyi "Əməkdə fərqlənməyə görə" döş nişanları, "Rusiya Federasiyasının ali peşə təhsilinin fəxri işçisi" adı və döş nişanı, 4 il dalbadal (2001-2004) Moskva hökumətinin təhsil sahəsində elm və texnologiyalara dair təsis etdiyi "Moskva Qrantı" müsabiqəsinin laureatı və pul mükafatları... Tibbi texnikanın inkişafında xüsusi xidmətlərinə görə Ümumittifaq Elmi Tibbi-Texniki Cəmiyyətinin Mərkəzi İdarəsi Rəyasət Heyətinin baxış-müsabiqəsinin qalibi diplomu (həmmüəlliflərlə birgə hazırladığı pyezokeramik ötürücü süni orqanların yaradılmasında uğurla tətbiq olunmuşdur), SSRİ-nin və Rusiya Federasiyasının digər çoxsaylı fəxri fərmanları və diplomları ilə təltif edilib.

Professor Ələddin Allahverdiyev 2019-cu ildə iki, olduqca nüfuzlu mükafatla, Rusiya Elmlər Akademiyasının nəzəri və tətbiqi mexanika üzrə Milli Komitəsinin görkəmli alim-mexanik, Sosialist Əməyi Qəhrəmanı, akademik, professor, fizika-riyaziyyat elmləri doktoru, 4 Lenin ordeni laureatı, bir neçə Dövlət mükafatı laureatı Xəlil Raxmatulin adına, Rusiya Kosmonavtika Federasiyasının təsis etdiyi Sosialist Əməyi Qəhrəmanı, general-leytenant, Lenin mükafatı laureatı, professor, texnika elmləri doktoru, Kosmik Proqramlar üzrə Dövlət Komisiyasının sədri Georgi Tyulin adına medallarla təltif olunub.

Ələddin müəllim həm də gözəl ailə başçısı, valideyn kimi də nümunəvi insandır. Xalqımızı o uzaq ellərdə olduqca layiqli şəkildə bir xanım, alim kimi tanıdan, M.V.Lomonosov adına MDU-nun məzunu, kimya elmləri namizədi Məhsəti xanımla birlikdə boya-başa çatdırdıqları oğlu Toğrul bəy və qızı Aytən xanım hər zaman – həm orta məktəbdə, həm də ali məktəbdə dərs əlacısı olmuş, oxuduqları universitetləri qırmızı diplomla bitirmişlər. İndi hər ikisi öz sahələrinin yüksək səviyyəli mütəxəssisləridir. İqtisad elmləri üzrə fəlsəfə doktoru olan Toğrul bəy Niderlandda məşhur "Eurasian Resources Group" kompaniyasında icraçı direktoru, Aytən xanım Qətərin paytaxtı Dohada plastik cərrah işləyirlər.

Ələddin müəllim artıq 54 ildir ki, Azərbaycandan kənarda yaşayır. Uzun illər Vətəndən uzaqda, tamamilə başqa bir mühitdə, elmlə, təşkilati işlərlə ciddi şəkildə məşğul olan başqa bir insan tanımıram ki, öz ana dilində Ələddin müəllim qədər səlis danışsın – yaza bilsin, doğma Azərbaycanı sevsin, onun tarixini, milli-mənəvi dəyərlərini bilsin, gözəlliklərini duysun, qəlbində gəzdirsin, onları təbliğ etsin. Öz milli musiqimizə, aşıq sənətinə və poeziyasına, folklorumuza, adət-ənənələrimizə bu qədər bağlı ola bilsin. Hətta qardaş Türkiyəyə gedənlər belə əksəriyyəti 2-3 ildən sonra qarışıq sözlərlə danışır, yazanda səhvlərə yol verirlər. Təsadüfi deyil ki, Ələddin müəllim Vətəndən kənarda yaşadığı illər boyu Nəbi Xəzrinin bu poetik misralarını dönə-dönə təkrar etməkdən yorulmadığını deyir:

***Könül ayrılmayır öz baharından,***
***İlham baharından, söz baharından.***
***Deyirəm, Vətənin bircə qış günü,***
***Yaxşıdır qürbətin yüz baharından.***

Ələddin müəllim Azərbaycan poeziyasını dərindən bilir. Onunla söhbəti Dədə Qorquddan, Nizamidən, Nəsimidən, Füzulidən başlayıb, bütün görkəmli söz adamlarımıza, Aşıq Alıya, Aşıq Ələsgərə, Səməd Vurğuna, Rəsul Rzayadək davam etmək, sonra ən gənc şairlərimizə qədər keçmək olar. Hər birinin yaradıcılığı haqqında çox samballı fikirlər eşitmək olar. Ələddin müəllim özü də ilk gənclik illərində şeirlər yazıb. Bu şeirlər mərkəzi qəzetlərdə də dərc olunub. Amma sonradan müxtəlif səbəblər üzündən nadir hallarda qələmə əl atıb.

Onunla aşıq musiqisinin, muğamın ən incəliklərinə qədər təhlillər aparmaq, klassik Qərb musiqisinin dərinliklərinə getmək olar. Üzeyir Hacıbəylini sonsuz məhəbbətlə sevir. Ələddin müəllim saz, qara zurna, qarmon musiqi alətlərində çalınan oyun havalarımızın sədaları altında yaşının bu çağında da çox gözəl rəqs edir. Doğrudur, hər kəs öz doğulub, boya-başa çatdığı yerləri sevir, tez-tez xatırlayır. Amma Ələddin müəllimin Göyçəyə məhəbbəti tamamilə özgə bir məhəbbətdir, müqəddəs məhəbbətdir. O Göyçədən danışanda sanki dua oxuyur, ibadət edir. O torpağın dağından-daşından, havasından-suyundan, doğulduğu Kəsəmən kəndindən, o yerlərin camaatının mehribanlığından, Oğuz ruhundan elə bir həyacanla danışır ki! Özünün "A Göyçə" şerində yazdığı kimi:

***Cismim qucağından uzaq olsa da,***
***Hicran qəm sazında hava çalsa da,***
***Ələddin yad eldə yuva salsa da,***
***Daim səninlədir könlüm, a Göyçə,***
***Səndən başlayıbdır talem, a Göyçə!***

Bu ilin əvvəlində o, məni əsasən göyçəlilərin iştirak etdiyi, Aşıq Ələsgərin 200 illik yubileyi ilə bağlı yaradılmış "Dədə Ələsgər Ədəbi Məclisi" nə dəvət etdi. Buna görə ona minətdaram. Məclisdə mən həqiqətən də Göyçə əhalisinin, Aşıq Ələsgərin, aşıq poeziyasının, xalqımızın müdrikliyinin ruhunu hiss edirəm. Göyçəni daha yaxından tanıyıram. Əvvəldən də bilirdim, indi daha çox hiss edirəm ki, Göyçə yer üzünün ən gözəl, ən müqəddəs məkanlarından biridir. Bu yerlərdə Misgin Abdal, Ağ Aşıq Allahverdi, şair Məmmədhüseyn, Ustad Aşıq Alı, Dədə Ələsgər, Növrəs İman kimi milli ruhumuzun memarlarının yetişməsi, ötən əsrdə Aşıq İmran, Aşıq Müseyib, Aşıq Qara, Aşıq Hacı, Aşıq Rza kimi aşıqların təmsil etdiyi Göyçə Aşıq məktəbinin formalaşması təsadüfi deyil ki! İnsan bədənində hər orqanın öz funksiyası var. Bir xalqın da yaşadığı məkanların hər birinin öz qüdrəti, öz əhəmiyyəti var. Qarabağ muğamın beşiyi olduğu kimi, Göyçə də aşıq musiqimizin beşiyidir. Milli ruhumuzun öz oksigeninin axıb gəldiyi bir yerdir. Orada əsrlər boyu yaşayan baba-nənələrimizin müqəddəs ruhlarının dolaşdığı məkandır. Göyçə də Qarabağ, Şuşa qədər bir məbədgahımızdır. Ona görə də o yerlərin düşmən caynağında qalmasına heç cür yol verməməliyik. Bu gün Ələddin müəllim dünya elmində xüsusi nüfuzu olan elm fədaisi olmaqla bərabər, doğma Göyçəsinin ən hörmətli, hamı tərəfdən qəbul edilən ağsaqqallarından biridir. O bu ağsaqqallıq missiyası ilə də Göyçə torpaqlarının qaytarılması, Göçə mədəni irsinin layiqli şəkildə təbliği, inkişafı üçün əlindən gələni edir.

Professor Ələddin Allahverdiyevi 75 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, ömrünün davamının uzun, sağlam, yeni uğurların fərəhi içində keçməsini arzulayıram!

*Əhməd QƏŞƏMOĞLU*